# Əbu-Dabiyə uzanan dostluq körpüsü






*Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı münasibətlər hərtərəfli strateji tərəfdaşlıq mərhələsinə daxil olmuşdur. Hər iki dövlətin liderləri - İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan arasında səmimi dostluq, qardaşlıq və dərin etimada söykənən şəxsi əlaqələr, tərəfdaşlığın hərəkətverici qüvvəsi, eyni zamanda təminatçısı rolunu oynayır. Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallıqlar, beynəlxalq aləmdə artan nüfuzu, iqtisadi müstəqilliyi və BƏƏ-nin qlobal iqtisadi, maliyyə, investisiya mərkəzi kimi möhkəmlənən mövqeyi strateji tərəfdaşlığın gücləndirilməsi üçün əlverişli şərait yaratmışdır. İki ölkə arasında mövcud tərəfdaşlıq təkcə ikitərəfli iqtisadi və siyasi fayda gətirmir, Cənubi Qafqaz və Körfəz regionları arasında etibarlı körpü funksiyasını yerinə yetirərək sabitliyə, təhlükəsizliyə və davamlı inkişafa əhəmiyyətli töhfə verir.*

İqtisadi əməkdaşlıq Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının ən dinamik inkişaf edən sahəsidir. Ticarət dövriyyəsində davamlı və yüksək templi artım iqtisadi əməkdaşlığın bariz göstəricilərindəndir. Məsələn, 2023-cü ilin yanvar-iyul aylarında ölkələr arasında ticarət dövriyyəsi 58.5 milyon ABŞ dolları təşkil edərək, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21.1 faizlik artım nümayiş etdirmişdir. Artım tendensiyası ilin sonuna doğru daha da sürətlənmiş, yanvar-noyabr aylarında 120,2 milyon dolları keçərək 27,1 faizlik artıma nail olunmuşdur. 2024-cü ilin ilk rübündə də müsbət dinamika qorunub saxlanılmış, ticarət dövriyyəsi ötən ilin müvafiq dövrünə nəzərən yüksək templə artaraq 33,1 milyon dollara çatmışdır. Təqdim edilən rəqəmlər hər iki ölkənin biznes dairələri arasında əlaqələrin intensivləşdiyini, mütəmadi keçirilən birgə biznes forumların, ixtisaslaşmış sərgilərin və xüsusilə Azərbaycanın Dubay şəhərində fəaliyyət göstərən Ticarət Evinin fəaliyyətinin yüksək səmərəliliyini göstərir. Azərbaycanın ixrac portfelində BƏƏ bazarına çıxarılan qeyri-neft məhsulları, xüsusilə yüksək keyfiyyətli kənd təsərrüfatı, emal sənayesi, neft-kimya və qida sənayesi məhsulları mühüm yer tutur. BƏƏ-dən Azərbaycana isə əsasən müasir texnologiyalar, elektronika, maşın və avadanlıqlar, müxtəlif sənaye və istehlak malları idxal edilir.

İnvestisiya sahəsindəki tərəfdaşlıq Azərbaycan-BƏƏ münasibətlərinin strateji dərinliyini və qarşılıqlı etimadın yüksək səviyyəsini əks etdirir. Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın qeyri-neft sektoruna xarici sərmayə yatıran ölkələrdəndir. 2023-cü ilin ilk rübündə BƏƏ-nin Azərbaycan iqtisadiyyatına birbaşa investisiya qoyuluşu 54,3 milyon dollar təşkil etmişdirsə, sonrakı dövrdə rəqəm təxminən 3,5 dəfə artaraq 190,7 milyon dollara çatmışdır. Eyni zamanda, iqtisadi əlaqələrin simmetrik inkişafının göstəricisi kimi, Azərbaycanın da BƏƏ iqtisadiyyatına investisiyaları kəskin şəkildə artmışdır. 2024-cü ildə Azərbaycanın BƏƏ-yə yönəltdiyi birbaşa investisiyalar 457,5 milyon dollar təşkil edərək əvvəlki ilə nisbətən təxminən 5 dəfə artım nümayiş etdirmişdir. İnvestisiyaların əhəmiyyətli hissəsinin Azərbaycan Dövlət Neft Fondu (ARDNF) tərəfindən BƏƏ-nin daşınmaz əmlak və təhsil kimi strateji əhəmiyyətli sektorlarına yönəldilməsi, uzunmüddətli inkişaf perspektivlərinə olan inamını və investisiya portfelini şaxələndirmək strategiyasına əsaslanır. Hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, xidmət, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə 350-dən çox BƏƏ investisiyalı şirkətin uğurla fəaliyyət göstərməsi iqtisadi əlaqələrin şaxəli və dərin köklərə malik olduğunu sübut edir.

İnvestisiya tərəfdaşlığının zirvəsi bərpaolunan enerji sektorunda, xüsusilə Əbu-Dabinin "Masdar" şirkəti ilə reallaşdırılan meqalayihələrdə özünü göstərir. Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "yaşıl enerji"yə keçid strategiyası və işğaldan azad edilmiş əraziləri "yaşıl enerji zonası"na çevirmək vizyonu BƏƏ-nin bu sahədəki qlobal liderliyi, zəngin təcrübəsi və böyük maliyyə imkanları ilə mükəmməl şəkildə uzlaşır. Əməkdaşlığın ilk möhtəşəm və real bəhrəsi olan 230 MVt gücündəki Qaradağ Günəş Elektrik Stansiyası 2023-cü ilin oktyabr ayında hər iki ölkənin yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə təntənəli şəkildə istismara verilmişdir. Xəzər dənizi və MDB məkanında ən böyük günəş elektrik stansiyası olan layihə, tamamilə xarici sərmayə - 262 milyon ABŞ dolları dəyərində birbaşa investisiya hesabına reallaşdırılmışdır. Stansiya ildə təxminən 550 milyon kilovat-saat elektrik enerjisi istehsal etməklə 110 mindən çox evi fasiləsiz və ekoloji təmiz enerji ilə təmin etməyə, hər il 120 milyon kubmetrə qədər qiymətli təbii qaza qənaətə və atmosferə atılan karbon emissiyasını 200 min tondan çox azaltmağa imkan verir. Ötən ilin martında Prezident İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 GVt (1000 MVt) olan daha üç nəhəng stansiyanın - 445 MVt gücündə Biləsuvar və 315 MVt gücündə Neftçala Günəş Elektrik Stansiyaları, eləcə də 240 MVt gücündə Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməli qoyulmuşdur. Tədbir Azərbaycanın enerji tarixində mühüm hadisədir. Layihələr üzrə investisiya müqavilələri, enerji alqı-satqı sazişləri və şəbəkəyə qoşulma müqavilələri kimi bütün zəruri sənədlər imzalanmışdır. 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində isə "SOCAR Green" və "Masdar" arasında Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Asiya İnkişaf Bankı (ADB) və Asiya İnfrastruktur və İnvestisiya Bankı (AIIB) kimi nüfuzlu beynəlxalq maliyyə qurumlarının iştirakı ilə 760 MVt gücündəki Biləsuvar və Neftçala layihələrinin maliyyələşdirilməsinə dair yekun sənədlərin imzalanması beynəlxalq etimadın təsdiqidir. Ümumi dəyəri 670 milyon dollar olan iki layihənin 2027-ci ildə tam istismara verilməsi, ildə 1.7 milyard kilovat-saatdan çox "yaşıl enerji" istehsalı, 380 milyon kubmetr təbii qaza qənaət və



karbon emissiyasını 830 min ton azaltması gözlənilir. Ümumilikdə, "Masdar" ilə Azərbaycan arasında imzalanmış anlaşma memorandumlarına əsasən yaxın perspektivdə quruda və dənizdə ümumi gücü 10 GVt-a qədər olan bərpaolunan enerji layihələrinin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Ənənəvi enerji sahəsində də əməkdaşlıq yeni, qarşılıqlı faydalı mərhələyə qədəm qoyub. 2023-cü ildən etibarən BƏƏ-nin milli neft şirkəti və dünyanın enerji nəhənglərindən sayılan ADNOC, Xəzərin Azərbaycan sektorundakı perspektivli "Abşeron" qaz-kondensat yatağının işlənməsində 30 faizlik payla iştirak edir. SOCAR tarixində ilk dəfə olaraq xarici ölkədə hasilat layihəsinə daxil olaraq ADNOC-dan Əbu-Dabi əmirliyində yerləşən nəhəng SARB və Umm Lulu dəniz neft yataqlarının işlənməsində 3 faizlik pay əldə edib. Qərar SOCAR-ın milli neft şirkətindən beynəlxalq enerji şirkətinə transformasiyası yolunda atılmış tarixi addımdır.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq da Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının mühüm komponentlərindəndir. Azərbaycanın Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Rusiyanı İran və Hindistanla birləşdirən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, respublikanı Avrasiyanın tranzit mərkəzinə çevirir. Potensialın reallaşdırılması və ölkənin tranzit gəlirlərinin artırılmasında BƏƏ-nin təcrübəsindən geniş istifadə olunur. BƏƏ-nin dünyanın ən böyük liman operatorlarından və logistika nəhənglərindən olan "DP World" şirkəti ilə Ələt Azad İqtisadi Zonasının (ƏAİZ) yaradılması və inkişafında məsləhətçi kimi başlayan əməkdaşlıq potensialın reallaşdırılması üçün fundamental platformadır. "DP World" şirkətinin qlobal təcrübəsi, beynəlxalq standartlara cavab verən hüquqi və vergi rejiminin yaradılması, ƏAİZ-in baş planının və idarəetmə konsepsiyasının hazırlanmasında həlledici rol oynamışdır. Zona Azərbaycanın tranzit və ixrac imkanlarını genişləndirməklə yanaşı, BƏƏ və digər Körfəz ölkələrinin şirkətləri üçün Cənubi Qafqaz, Mərkəzi Asiya, Rusiya və Şərqi Avropa bazarlarına çıxış üçün unikal qapı, istehsal və logistika mərkəzi rolunu oynayacaqdır.

İki ölkə arasında əlaqələr qısa müddətdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. İyulun 9-da səfər zamanı iki lider arasında səmimi və işgüzar danışıqlar əsnasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərin yüksək səviyyədə olduğu və iqtisadi-ticari əməkdaşlığın dinamik inkişaf etdiyi vurğulanmışdır. Səfər zamanı Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalandı. Görüşün sonunda dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycan və BƏƏ beynəlxalq arenada da ardıcıl dəstək nümayiş etdirirlər. BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda ölkələrin mövqeləri əksər prinsipial məsələlərdə üst-üstə düşür. BƏƏ hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləmiş, postmünaqişə dövründə Azərbaycanın irəli sürdüyü sülh gündəliyinə və bölgədə bütün kommunikasiyaların açılmasına tərəfdar çıxmışdır. Siyasi dəstəyin praktik təzahürü kimi BƏƏ-nin İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycanın suverenliyinin simvolu olan Xankəndi şəhərində keçirilmiş Zirvə görüşündə yüksək səviyyədə təmsil olunması təqdirəlayiq haldır.

Siyasi dəstəyin və etimadın bariz nümunələrindən biri iyulun 10-da Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü oldu. Görüşün məhz Əbu-Dabidə keçirilməsi təsadüfi deyil və Azərbaycan diplomatiyasının mühüm uğurudur. Bu hadisə Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında formalaşan yüksək səviyyəli siyasi etimadın və strateji tərəfdaşlığın göstəricisi kimi dəyərləndirilməlidir. Birincisi, sülh prosesinin ənənəvi Qərb platformalarından (Brüssel, Vaşinqton) Azərbaycanın sülh gündəliyinə anlayışla yanaşan dost ölkənin paytaxtına gətirilməsi deməkdir. Bu proses Azərbaycanın xarici təzyiqlərdən azad, konstruktiv və nəticəyönümlü danışıqlarda maraqlı olduğunu nümayiş etdirir. İkincisi, BƏƏ-nin ev sahibliyi rolunu öz üzərinə götürməsi, rəsmi Bakının irəli sürdüyü regional sülh və əməkdaşlıq formatlarının Körfəz ölkələri tərəfindən də dəstəkləndiyini göstərir. Bu, Cənubi Qafqazda sülhün təminatında regional güclərin rolunun artırılması istiqamətində Azərbaycanın strateji xəttinə tamamilə uyğundur. Üçüncüsü, Əbu-Dabi görüşü BƏƏ-nin Cənubi Qafqazda sülhyaratma prosesində rol oynamağa hazır olan mühüm siyasi lider ölkə mövqeyini gücləndirir ki, bu da Azərbaycanın çoxşaxəli xarici siyasətinin məntiqi nəticəsidir. Beləliklə, görüşün özü qədər, onun keçirildiyi məkan da Azərbaycanın regiondakı mövqelərinin güclənməsinin, sülh prosesində təşəbbüsü əlində saxlamasının və etibarlı tərəfdaşlar şəbəkəsini genişləndirməsinin göstəricisidir.

Görüş zamanı iki ölkə arasında ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənmiş, bu əsasda nəticəyönümlü dialoqun davam etdirilməsi barədə razılıq əldə olunmuşdur. Sərhədlərin delimitasiyası prosesi üzrə əldə olunmuş nailiyyətlər dəyərləndirilmiş və bu istiqamətdə əməli addımların atılması üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar verilmişdir. Tərəflər, həmçinin ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəlmiş, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana səmimi qonaqpərvərliyə və görüşün təşkilinə görə təşəkkür etmişlər.

Sosial və humanitar sahələrdə əlaqələr də xalqlar arasında dostluq körpülərini möhkəmləndirir. Turizm əməkdaşlığın dinamik sahələrindəndir. Hər iki ölkə arasında viza rejiminin sadələşdirilməsi, Bakı, Gəncə kimi şəhərlərlə Dubay, Əbu-Dabi və Şarja arasında birbaşa aviareyslərin sayının əhəmiyyətli dərəcədə artması nəticəsində BƏƏ-dən Azərbaycana gələn turistlərin sayında kəskin artım müşahidə olunur. Son illər ərzində BƏƏ-dən Azərbaycana xeyli turist səfər etmişdir. Azərbaycan da BƏƏ vətəndaşları üçün həm istirahət, həm də işgüzar səfərlər üçün populyar turizm məkanıdır. Hər iki ölkə turizm şirkətləri arasında əlaqələrin gücləndirilməsində və birgə turizm məhsullarının yaradılmasında maraqlıdır. Humanitar sahədə də əməkdaşlıq davam etməkdədir. BƏƏ-nin Qızıl Aypara Cəmiyyəti Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə sıx əməkdaşlıq edərək Azərbaycanda müxtəlif sosial layihələr həyata keçirir, ehtiyacı olan ailələrə, məcburi köçkünlərə yardımlar göstərir. Fəaliyyət iki qardaş xalq arasında həmrəyliyin və qarşılıqlı dəstəyin bariz nümunəsidir. BƏƏ-nin işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə və bərpa-quruculuq işlərinə potensial yardım göstərmək niyyəti də yüksək qiymətləndirilir.

Azərbaycan-BƏƏ münasibətləri sadəcə qarşılıqlı faydalı əməkdaşlıqdan çıxaraq, nümunəvi tərəfdaşlığa çevrilmişdir. Bu əməkdaşlıq siyasi iradə, "yaşıl enerji" sahəsində meqalayihələr, Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi, COP29 çərçivəsində birgə fəaliyyət və sülh prosesinə dəstək kimi mühüm sütunlara söykənir. İşğaldan azad edilmiş ərazilərin bərpası, rəqəmsal texnologiyalar və süni intellekt sahələrində əməkdaşlıq isə gələcək üçün geniş perspektivlər açır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**